**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**
**Q Ə R A R**
**№ 58**
**Bakı şəhəri, 31 mart 2005-ci il**

**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları”nın təsdiq edilməsi və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında**

“Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamının 3.1 və 3.5 yarımbəndlərinin icrası ilə əlaqədar Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi ilə rzılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi “Aqrolizinq” ASC-nin fəaliyyətinin təşkili ilə bağlı 20 gün müddətində:

2.1. “Aqrolizinq” ASC-nin yerləşdiril-məsi, texnikanın və texnoloji avadanlıqların qəbulu, saxlanması, lizinqə verilməsi və ya lizinq yolu ilə satılması, habelə texniki servis xidməti işinin təşkili üçün “Aqrolizinq”ASC-nin təchizat bazası(dəmir yol xətti olan) ilə təmin olunması barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə “Aqrolizinq” ASC-nin nizamnamə kapitalının formalaşmasına, fəaliyyətinin təşkilinə və digər zəruri tədbirlərin aparılmasına (maddi-texniki bazasının yaradılmasına), habelə mövcud qanunvericiliyə uyğun olaraq texnikanın və texnoloji avadanlıqların alınmasına tələb olunan vəsaitlərin müəyyən olunmuş qaydada ayrılmasını təmin etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2005-ci il 31 mart
tarixli 58 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması**

**QAYDALARI**

**1.** Bu qaydalar Azərbaycan Respublikası Prezidentinin “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamının 3.1-ci yarımbəndinə uyğun olaraq hazırlanmışdır və “Aqrolizinq”Açıq Səhmdar Cəmiyyətinə (bundan sonra “Aqrolizinq ASC) məxsus kənd təsərrüfatı texnikasının (bundan sonra texnika və texnoloji avadanlıqlar) hüquqi və fiziki şəxslərə (bundan sonra istifadəçi) lizinqə verilməsi və ya lizinq yolu ilə satılması mexanizmini müəyyən edir.

**2.** İstifadəçi “Aqrolizinq” ASC-yə məxsus texnikanın və texnoloji avadanlıqların lizinqə verilməsi və ya lizinq yolu ilə satılması barədə “Aqrolizinq” ASC-yə yazılı formada müraciət edir.

Müraciətə uyğun olaraq “Aqrolizinq” ASC tərəfindən texnikanın və texnoloji avadanlıqların müəyyən haqla, müəyyən müddətə, mülkiyyət hüququnun istifadəçiyə keçməməsi şərti ilə lizinqə verilməsi və ya texnikanın və texnoloji avadanlıqların dəyərinin ən geci 10 ilə ödənilməsi şərti ilə istifadəçiyə lizinq yolu ilə satılması barədə 3 iş günü müddətində müvafiq qərar qəbul edilir. Qəbul edilən qərar barədə istifadəçiyə 2 iş günü müddətində məlumat verilir.

**3.** “Aqrolizinq” ASC ilə istifadəçi arasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə uyğun tərəflərin öhtəliklərini nəzərdə tutan lizinq müqaviləsi bağlanılır. Lizinq müqaviləsində tərəflərin öhtəliklərinin pozulması sayılan və lizinq müqaviləsinin ləğvinə səbəb olan hallar müəyyənləşdirilməli, tərəflər arasında hesablaşma və texnikanın və texnoloji avadanlıqların geri götürülməsi proseduru hökmən qeyd olunmalıdır.

İstifadəçi “Aqrolizinq” ASC-yə məxsus texnikaları və texnoloji avadanlıqları siğorta haqqı da daxil olmaqla, lizinq yolu ilə satın aldıqda onların dəyərinin 10 faizini əvvəlcədən, qalan hissəsini isə bir ildən sonra 9 il ərzində ödəyir.

**4.** “Aqrolizinq” ASC texnikanın və texnoloji avadanlıqların lizinq müqaviləsində nəzərdə tutulmuş qaydada təhvil-təslim aktı əsasında istifadəçiyə verilməsini təmin edir.

**5.** Istifadəçi lizinq ödənişlərini lizinq müqaviləsində göstərilən qrafikə uyğun olaraq “Aqrolizinq” ASC tərəfindən müvəkkil bankda açılmış depozit hesaba köçürür.

**6.** Texnika və texnoloji avadanlıqlar lizinq müqaviləsi bağlananadək qanunvericilikdə nəzərdə tutulmuş qaydada “Aqrolizinq” ASC tərəfindən siğortalanır.

**7.** Mülkiyyət hüququnun istifadəçiyə keçməməsi şərtilə bağlanılan lizinq müqaviləsinə xitam verildikdən sonra istifadəçi götürdüyü texnikanı və texnoloji avadanlıqları lizinq müqaviləsində nəzərdə tutulmuş qaydada qaytarılmalıdır.

**8.** Lizinq yolu ilə satılmış texnika və texnoloji avadanlıqların dəyəri istifadəçi tərəfindən tam ödəndikdən sonra lizinq müqaviləsinə xitam verilir və həmin texnikanın və texnoloji avadanlıqların istifadəçinin mülkiyyətinə verilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada “Aqrolizinq” ASC tərəfindən rəsmiləşdirilir.